## AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI

## ƏMR

**6 may 2026-cı il** **10-1/3-1-74/2026**

**Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin "Peşə fəaliyyəti ilə bağlı tələb edilən lazımi sənəd və məlumatların təqdim edilməməsinə və Beynəlxalq Audit Standartlarının tələblərinə riayət edilməməsinə görə intizam və tənbeh tədbirləri barədə" 2026-cı il 5 fevral tarixli 10-1/3-1-26/2026 nömrəli əmrində dəyişiklik edilməsi barədə**

"Capital Audit" məhdud məsuliyyətli cəmiyyətinin auditoru Əliyev Razi Təhməz oğlunun 2026-cı il 17 mart tarixli ərizəsində və Auditorlar Palatasının Auditin transformasiyası, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədovun 2026-cı il 7 aprel tarixli xidməti məktubunda (ərizə və xidməti məktub əlavə olunur) qeyd edilənləri nəzərə alaraq verilmiş intizam tənbehi tədbirinin daha yüngül intizam tənbehi tədbiri ilə əvəz edilməsi məqsədilə **əmr edirəm:**

1. Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin "Peşə fəaliyyəti ilə bağlı tələb edilən lazımi sənəd və məlumatların təqdim edilməməsinə və Beynəlxalq Audit Standartlarının tələblərinə riayət edilməməsinə görə intizam və tənbeh tədbirləri barədə" 2026-cı il 5 fevral tarixli 10-1/3-1-26/2026 nömrəli əmrinin 1-ci bəndində "6 (altı) ay müddətinə" rəqəm və sözləri "3 (üç) ay müddətinə" rəqəm və sözləri ilə dəyişdirilsin.

2. "Capital Audit" məhdud məsuliyyətli cəmiyyətinin auditoru Əliyev Razi Təhməz oğlunun peşə (auditor) fəaliyyəti 2026-cı il 6 may tarixindən bərpa edisin.

3. Auditin təşkili, hesabatlılıq və icra intizamına nəzarət idarəsinə (V.Cavadov) tapşırılsın ki, bu əmrdən irəli gələn məsələləri həll etsin.

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/thOyw8IGKLCphp4yQdyIAqd0HSKADwj%2BFzTnITiupV8%3D